**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**ZÜMRÜD ELDAR QIZI MƏLİKOVA**

# ŞƏRQİ AVROPA MÜASİR AVROPA TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ

**İxtisas: 5901.01 – «Beynəlxalq münasibətlər»**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün**

**təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı-2014**

İş Bakı Slavyan Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** fəlsəfə elmləri doktoru, professor
**C.R.Məmmədov**

**Rəsmi opponentlər:** siyasi elmlər doktoru
**R.M.Sevdimalıyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**R.S.Qasımzadə**

**Aparıcı təşkilat**: Bakı Dövlət Universitetinin «Diplomatiya və müasir inteqrasiya prosesləri» kafedrası

Müdafiə « _30___ » 09_ 2014-cü il saat ____ -da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ1001, Bakı şəhəri, Lermontov küçəsi,74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____ » ____________ 2014-cü ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent: S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Sərqi Avropa Avropa qitəsinin şərq hissəsində yerləşən, mühüm əhəmiyyət kəsb edən geosiyasi bölgədir. Əsrlər boyu bu bölgə təhlükəsizliklə bağlı beynəlxalq siyasətin obyekti olmuş və Şərqi Avropaya nəzarət paradiqması qitədə üstünlüyün əldə olunması ideyasının yaranmasına gətirib çıxarmışdır. XX əsrin sonlarında Şərqi Avropa ölkələrində sistemli dəyişikliklər nəticəsində sosialist sistemi dağıldı. Soyuq müharibənin başa çatması və SSRİ-nin süqut etməsi dünyada qüvvələr tarazlığını əsaslı şəkildə dəyişdirdi. Qitənin şərqində baş verən dəyişikliklər Avroatlantik İttifaqı ölkələri üçün əhəmiyyətli oldu. Belə ki, onların qarşısında təhlükəsizlik maraqlarını təmin edən geniş və mühüm əhəmiyyət kəsb edən geosiyasi məkan açıldı. Postsoyuq müharibə şəraitində NATO Balkanlardakı münaqişələrin tənzimlənməsində yaxından iştirak etməklə qitənin təhlükəsizlyinin əsas təminatçısı rolunda çıxış etdi. Ümummilli lider Heydər Əliyev Şimali Atlantika Müqaviləsi Təşkilatının Avropanın, eləcə də Şərqi Avropa ölkəsi olan Azərbaycanın təhlükəsizliyində əhəmiyyətli rolunu vurğulayaraq qeyd etmişdir: «NATO Avropada təhlükəsizlik kimi olduqca vacib bir məsələ ilə məşğul olan təşkilatdır. Azərbaycan isə Avropanın bir hissəsidir».[1]

Şərqi Avropa ölkələrinin ümumavropa təhlükəsizlik sisteminə daxil edilməsi müvafiq milli təhlükəsizlik sahəsində yeni dövlət siyasətinin formalaşmasına təkan vermiş oldu. Milli təhlükəsizlik siyasətinin Avropa standartlarına uyğunlaşdırılması, yeni qanunların, dövlət strukturlarının həyata keçirilmə mexanizmlərinin yaradılması Şərqi Avropa dövlətlərinin təhlükəsizlik sahəsində siyasi fəaliyyətinin əsasına çevrildi.

Bölgənin Avropa təhlükəsizlik sistemindəki yerinin müəyyənləşdirilməsi və sistemin formalaşmasında oynadığı rolunun əhəmiyyətini araşdırmaq, eləcə də soyuq müharibədən sonra bu bölgənin həm qitənin, həm də beynəlxalq təhlükəsizliyin təminatındakı iştirakını tədqiq etmək, habelə Rusiya ilə NATO məkanı arasında təhlükəsizlik sahəsində xüsusi əlaqələrin təhlil olunması və digər bu kimi problemlərlə bağlı araşdırmaların aparılması böyük elmi aktuallıq kəsb edir.

Problemin tədqiqinin aktuallığını aşağıdakı konkret müddəalarla izah etmək olar:

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 46 cilddə., 8-ci Kitab. Bakı, Azərnəşr, 1998, s.205

- Şərqi Avropa ölkələrində bərqərar olmuş sabit demokratik əsaslara söykənən siyasi sistem qitənin təhlükəsizliyinin təminatı baxımından mühüm əhəmiyyət daşıyır.

- Bölgənin böyük hissəsi NATO, Avropa İttifaqının şərq sərhədlərini təşkil edir. Bu ölkələr bir növ bufer rolu oynayaraq Avropanın üzləşdiyi ənənəvi təhdidlərlə yanaşı, yeni təhlükə mənbələri olan terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kiber cinayətkarlıq, insan alveri, cinsi istismar (xüsusən, uşaqlara və yetkinlik yaşına çatmamış şəxslərə qarşı), iqtisadi cinayətkarlıq, korrupsiya, silah alveri, transsərhəd cinayətkarlığı və onlara cəhd kimi təhdidlərin qarşısını almaqla qitənin təhlükəsizliyinə xidmət göstərir.

- Şərqi Avropa soyuq müharibədən sonra başlanmış bir prosesə təkan verdi: Bu regionun mütəxəssisləri Qərbi Avropaya «beyin axını» edərək Qərbdə işçi bazarına müsbət təsir göstərərək demoqrafik artıma təsir göstərmiş və bu gün də demoqrafik boşluğu doldurmaqdadırlar.

- Şərqi Avropa qitənin enerji təhlükəsizliyinin təminatında mühüm rol oynamaqdadır. Avropanın enerji ehtiyatları ilə təminatı sahəsində bölgə ölkələri həm ixrac edən ölkə (Azərbaycan və Rusiya), həm də tranzit ölkə (Gürcüstan, Polşa və Ukrayna) kimi əhəmiyyətli rola malikdirlər və Qərbi Avropanın enerji siyasətinin reallaşdırılmasında yaxından iştirak edirlər. Bu regionun ölkələri karbohidrogen ehtiyatlarının Avropaya ötürülməsində mühüm rol oynayır və Avropanın enerji təhlükəsizliyində vacib tərəfdaş kimi çıxış edir. Bu məsələlərə toxunan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın enerji təhlükəsizliyi sahəsində artıq Avropa təsisatlarının mühüm tərəfdaşı hesab olunduğunu xüsusi olaraq diqqətə çatdırmışdır.[1]

- Ümumavropa təhlükəsizliyinin təminatında mühüm rol oynayan Şərqi Avropa şərqdən ola biləcək təhlükələrin qarşısını almaq və təhdidlərlə mübarizə aparmaq üçün ixtiyarında olan bütün üsul və vasitələrdən istifadə edərək qitənin təhlükəsizliyində özünəməxsus rola malikdir. Regionda NATO-nun, o cümlədən ABŞ-ın hərbi bazaları yerləşdirilmişdir.

Beləliklə, Şərqi Avropa qloballaşma proseslərinin doğurduğu problemlərin, beynəlxalq terrorizmə qarşı mübarizədə, lokal və regional

[1] Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozu ilə görüşünün yekunu üzrə keçirilən mətbuat konfransında çıxışı. http://www.president.az 21.06.2013

münaqişələrin həllində fəal iştirak etməklə ümumavropa təhlükəsizliyinin həlledici elementinə çevrilmişdir.

**Problemin işlənmə dərəcəsi.** Problemlə bağlı tədqiqatları şərti olaraq Qərb, Rusiya, Şərqi Avropa və Azərbaycanda aparılan politoloji tədqiqatlar baxımından dörd qrupa bölərək təhlil etmək zəruridir. Problemin öyrənilməsi dərəcəsinə görə, elmi əsərləri də bir neçə qrupa bölmək olar:

- Birincisi, soyuq müharibədən sonra Avropada, o cümlədən Şərqi Avropada beynəlxalq-siyasi durumu, dövlətlərlərarası münasibətləri və yeni dünya düzümünün araşdırılmasına həsr olunmuş nəzəri-politoloji tədqiqatlar;
- İkincisi, NATO-nun soyuq müharibədən sonrakı fəaliyyətini, Təşkilatın şərqə doğru genişlənməsinin araşdırılmasına dair tədqiqat əsərləri;
- Üçüncüsü, postsoyuq müharibə dövründə Avropa inteqrasiyasının yeni mərhələsindən, Avropa İttifaqının və onun ümumi xarici və təhlükəsizlik siyasətinin (ÜXTS) yaradılmasından bəhs edən araşdırmalar.
- Şərqi Avropa ölkələrinin təhlükəsizlik problemlərinə, onların NATO və Aİ-yə inteqrasiyası prosesinə həsr olunmuş tədqiqatlar.

Birinci qrupa B. Buzan, P.Kalvokoressi, Leyk və digər qərbli müəlliflərin, rus tədqiqatçılarından Y.P.Bajanov, Kulaqin və digərlərinin tədqiqat əsərləri aiddir.[1]

İkinci qrupa dair Asmus R.D., Qesiyu A., Kaplan L.S., Bir F A., Pakett Lor, Karpenter T.Q. və Korni B., Barani.Z kimi qərbli tədqiqatçıların əsərlərində Şimali Atlantika İttifaqının Avropa təhlükəsizliyinin təminində rolunun artmasına təsir göstərən amillər, şərqə doğru genişlənmənin mənfi və müsbət tərəfləri təhlil edilərək hərtərəfli araşdırılmışdır.[2]

---

[1] Buzan B. People,States and Fear.An Agenda for International Security Studies in the Post-Cold War Era. Second Edition. Colorado: Lynne Rienner Publishers Boulder, 1991; Кальвокоресси П. Мировая политика 1945-2000: В 2-х кн. Книга 1-я, Пер. с англ. М.: Международные отношения, 2003; Lake D.A. Entangling Relations: American Foreign Policy in its Century. Princeton N.J.: Princeton University Press, 1999; Бажанов Е.П. Современный мир. Избранные труды. Москва, «Известия», 2004; Кулагин В.М. Международная безопасность. М.: Аспект Пресс, 2007.

[2] Asmus R.D. Opening NATO's Door: How the Alliance Remade Itself for a New Era Columbia University Press., 2002; Gheciu Alexandra. NATO in the 'New Europe' Stanford University Press., 2005; Kaplan L.S. NATO Divided, NATO United: The Evolution of an Alliance. Praeger., 2004; Beer Francis A. Integration and Disintegration in NATO: Processes of Alliance Cohesion and Prospects for Atlantic Community. Columbus: Ohio State University Press., 1999; Paquette Laure . NATO and Eastern Europe After 2000. New York: Nova Science, 2001; Carpenter T.G., Conry B. NATO Enlargement: Illusions and

NATO-nun Şərqə doğru genişlənməsinin nəticələri, Alyansın maraqları, eləcə də Rusiyanın bu prosesə münasibəti macar tədqiqatçısı Qyula Benenin araşdırmasında ətraflı təhlil olunmuşdur.[1]

Üçüncü qrupu Avropa inteqrasiyasının inkişafını, genişlənmənin mərhələləri, Aİ və onun ikinci dayağı - ÜXTS-nin yaradılmasını hərtərəfli araşdıran tədqiqatçılar təşkil edir. Qərbli tədqiqatçılardan L. Brittenin, M. Emersonun, G.Rossun, R.Taylerin, Rusiyalı tədqiqatçılardan O.Ardaçev, V.Baranovski, Y.Borko, O.Butorina, V. Jurkin, V.Şemyatenkov və digərlərinin tədqiqat əsərləri bu problemlərin təhlilinə həsr olunmuşdur.[2]

Qərbi avropalı tədqiqatçılar A. Dyumulen, R.Matye və G.Sarlenin həmmüəllifləri olduğu fundamental əsər, Rober Şuman Mərkəzinin, Parisdə yerləşən Avropa İttifaqının Strateji Tədqiqatlar İnstitutu və Jak Delorun rəhbərliyi altında «Bizim Avropa» müstəqil tədqiqatlar mərkəzinin nəşrləri Aİ-nin genişlənməsi prosesi və onun xarici siyasət və təhlükəsizlik sahəsində və müdafiə siyasətinin təşəkkül etməsi prosesinin tədqiqinə həsr olunmuşdur.[3]

---

Reality**.** Cato Institute. Washington DC. 2003.; Barany Z. The Future of NATO Expansion. Four Case Studies . Cambridge University Press.,2003.

[1]Bene G. Participation of Eastern Europe in NATO expansion. http://www.fas.org/man/eprint/bene.htm

[2] Brittan L. A Diet of Brussels. The Changing Face of Europe. London, Little, Brown and Company (UK), 2000; Emerson M. Redrawing the Map of Europe . N. Y.: St. Martin's Press, Inc., 1998; Ross G. The European Union and Its Crises: Through the Eyes of the Brussels Elite, Palgrave Macmillan, 2011; Tyler R. White. European Integration, identity and national self interest: the enduring nature of national identity. Political Science Department University of Nebraska, 2010, Ардачев О. Западноевропейский союз в системе европейской безопасности. М.: 1998; Барановский В.Г. Западная Европа: военно-политическое интеграция. М.: 2001; Буторина О. Стратегические вызовы Европейского Союза в XXI веке и перспективы развития отношений ЕС и СНГ. М.: 2005; Расширение Европейского Союза и Россия / Под редакции О.В.Буториной, Ю.А.Борко. М.: «Деловая литература», 2006; Журкин В. Европейская армия: поражения и победы. Общая политика безопасности и обороны Европейского Союза. 2012; Шемятенков В.Г. Европейская интеграция. М.: Международные отношения, 2003

[3] Dumoulin A., Mathieu R., Sarlet G. La Politique Europeenne de Securite et de Defense(PESD). De l'Operatoire a l'Identitaire. Genese, Structuration, Ambition, Limites. Bruxelles: Etablissement Emile Bruylant, 2003; The Political Dimension of EU Enlargement: Looking Towards Post-Acession. Report of the Reflection Group. Chairman: Dehaene. Rapporteur: A. Krok-Paszkowska. Robert Schuman Centre for Advanced Studies. Florence: European University with the Group of Policy Advisors European Commission, 2002; Wallace W.Looking after the Neighbourhood: Responsibibilities for the EU-25. Notre Europe. Groupement d' Etudes et de Recherches. President: J.Delors // Policy Pappers. 2003, №4

Şərqi Avropa ölkələrinin təhlükəsizlik problemləri, onların NATO və Aİ-yə inteqrasiyası prosesinə həsr olunmuş araşdırmalara E.Pozdnyakov və Qanjanın, F. Kemeronun kitabını aid etmək olar. Dissertasiyada Şərqi Avropalı tədqiqatçıların – K.Botoş, K. Pelçinskiy-Nalenç, F.Duleba, L.Poti və V.Votapek, V.Buqa, B.Jelitski və digərlərinin region ölkələrinin NATO və Aİ-yə inteqrasiyasının problem və perspektivlərinə həsr olunmuş araşdırmalarından da istifadə olunmuşdur. [1]

Azərbaycan alimlərindən Ə.Həsənov, H.Hüseynova, S.Həmidov, H.Babaoğlu və E.Əhmədov Avropada inteqrasiya prosesləri və onun ayrı-ayrı tərəflərini araşdırmış, elmi maraq doğuran müddəalar irəli sürmüşlər. Ə.Həsənov və A.Abbasbəylinin həmmüəllifi olduqları kitabda və P.Darabadinin, C.Eyvazovun, E.Süleymanovun və digərlərinin tədqiqatlarında zəngin faktiki materiallar əsasında Azərbaycanın NATO və Aİ kimi təşkilatlarla əlaqələrini şərtləndirən amillər göstərilmiş, bu təşkilatların Cənubi Qafqaz siyasətində Azərbaycanın rolu, təhlükəsizik problemləri ətraflı araşdırılmışdır. O.Əliyevin monoqrafiyasında Yuqoslaviyadakı hərbi münaqişələrin tənzimlənməsində beynəlxalq və regional aktorların iştirakı və rolu kompleks şəkildə tədqiq edilmişdir. [2]

---

[1] Поздняков Э. Ганжа С. Новые страны на пороге Европейского союза. М.: 2006; Cameron F. The European Union and the Challenge of Enlargement. – in: The Enlarging the European Union: relations between the EU and Central and Eastern Europe. Ed. by Marc Maresceau. London and New York, Longman, 1997; Страны Центральной и Восточной Европы на пути в Европейский Союз. М.: Наука, 2002; Пелчинский-Наленч К., Дулеба Ф., Поти Л., Вотапек В. Восточная политика Европейского Союза: перспектива вышеградских стран. Варшава, Центр восточных исследований, 2003; Буга В. Закат империи. СССР в эпоху Горбачева. 2007; Желицки Б.Й. Общий кризис «реального социализма» и демократические преобразования в Венгрии // Вопросы истории. 2000, №6.

[2] Həsənov Ə.Azərbaycan və ATƏT. Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı, İşıq nəşriyyatı, 1997; Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı, 1998; Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı : ADU, 2009; Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. «Aypara-3» nəşriyyatı. Bakı, 2009; Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, «Tuna», nəşriyyatı, 1998; Аббасбейли А.Н., Гасанов А.М. Азербайджан в системе международных и региональных организаций. Баку, «Азернешр», 1999; Алиев О. Словения и Хорватия: дипломатия войны и мира. Баку, БСУ, «Kitab aləmi», 2009; Дарабади П. Геоистория Каспийского региона и геополитика современности. Баку, «Элм», 2002; Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку, Нурлан, 2004; Süleymanov E.S. Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru. Bakı, «CBS polygraphic-production» mətbəəsi., 2011.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müasir Avropa təhlükəsizlik sisteminin formalaşmasından və Şərqi Avropanın bu sistemdəki rolunun və yerinin araşdırılmasından ibarətdir.

Tədqiqatın predmetini isə Avropada sülhə, sabitliyə və inkişafa təsir göstərmək imkanına malik Şərqi Avropa bölgəsinin NATO və Avropa İttifaqının işində iştirakı, eləcə də regional və beynəlxalq təhlükəsizlik problemlərinin həllində, xüsusən terrorizmə qarşı mübarizə və münaqişələrin tənzimlənməsi prosesindəki fəaliyyəti təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi soyuq müharibədən sonra Şərqi Avropa regionunun Avropa təhlükəsizlik sisteminin formalaşmasında rolu və yerini müəyyən etməkdən ibarətdir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- Şərqi Avropada sosializmin iflasına təsir göstərən amilləri göstərmək, VMT-nin buraxılması və SSRİ-nin süqutu fonunda qitədəki siyasi hərbi durumu dəyərləndirərək Ümumavropa təhlükəsizliyinin xarakterini, onun xüsusiyyətlərini və mümkün modellərini müəyyənləşdirmək və təhlil etmək;

- Yeni beynəlxalq-siyasi durumda Avropa təhlükəsizliyi sahəsində fəaliyyət göstərən təşkilatların fəaliyyətini təhlil etmək;

- Yeni təhlükəsizlik təhdidlərinin meydana çıxması kontekstində ABŞ-ın qitənin təhlükəsizliyində iştirakının hüquqi-siyasi əsaslarını və səbəblərini müəyyənləşdirmək;

- NATO-nun transformasiya prosesi və Şərqə doğru genişlənmə strategiyasının əsaslarını və səbəblərini araşdırmaq;

- Şərqi Avropanın Şimali Atlantika Təşkilatına inteqrasiyasına, bölgə ölkələrinin daxili, xarici və müdafiə siyasətinə yenidən baxaraq apardıqları sistemli dəyişiklikləri araşdırmaq və təhlil etmək;

- Rusiya Federasiyasının qitədə tutduğu mövqeyi və malik olduğu potensial nəzərə alınmaqla ümumavropa təhlükəsizlik sistemindəki rolunu araşdırmaq və bu ölkənin NATO-nun Şərqə doğru genişlənməsinə mənfi münasibətinin mahiyyətini və səbəblərini müəyyənləşdirmək;

- Avropa təhlükəsizliyinin əsas təminatçısı olan NATO ilə yanaşı, bu sistemdə fəal iştirakını getdikcə daha da artırmaqda olan Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətini, eləcə də müdafiə siyasətinin inkişaf dinamikasını, Şərqi Avropa ölkələrinin Aİ-nin ÜXTS-nin formalaşmasında iştirakını təhlil etmək;

- Müasir ümumavropa təhlükəsizlik sistemində Şərqi Avropa bölgəsinin əhəmiyyətini vurğulayaraq Avropa təhlükəsizlik strukturlarının fəaliyyətinin hərtərəfli təhlilini aparmaq;

- Azərbaycanın Avropa təhlükəsizlik sisteminin formalaşmasında iştirakının prinsipləri və əsas istiqamətlərini müəyyən etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri bazasını ilk növbədə Ümummilli lider H.Əliyevin və Azərbaycan Prezidenti İ.Əliyevin problemin müxtəlif aspektləri ilə bağlı irəli sürdükləri konseptual müddəalar, eləcə də beynəlxalq münasibətlər nəzəriyyəsində realizm, idealizmin müəyyən əlamətlərini özündə ehtiva edən rasionalizm yanaşmasının tərəfdarlarının irəli sürdüyü konseptual müddəalar, habelə bu sahədə bir sıra tədqiqatçıların mövzu ilə bağlı fundamental əsərlərindəki fikirləri təşkil edir.

Tədqiqatın metodoloji əsasını müasir dövrdə beynəlxalq münasibətlərlə bağlı aparılan tədqiqat işlərində geniş tətbiq olunan və beynəlxalq həyatın reallıqlarının obyektiv şəkildə araşdırılmasına imkan verən metodlar sistemindən istifadə olunmuşdur. Müqayisəli və sistemli yanaşma üsullarından yaradıcı şəkildə istifadə olunmuşdur. Tədqiqat işində sosial-siyasi proseslərin dərk olunmasının ümumelmi metodları, struktur-funksional, tarixi və siyasi təhlil, məntiqi tədqiqat, klaster-təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işi bir sıra sənəd və rəsmi məlumatlar əsasında yazılmışdır. Bu mənbələrə ilk növbədə NATO və Avropa İttifaqının rəsmi sənədləri, qəbul etdiyi konsepsiya, strategiyalar və proqramları, Şərqi Avropa ölkələrinin rəsmi sənədləri və s. daxildir.

Bundan savayı, tədqiqat zamanı Şərqi Avropa ölkələrinin rəsmi nümayəndələrinin, dövlət və hökumət başçılarının, NATO-nun Baş Katibi və Avropa İttifaqının rəsmi nümayəndələrinin nitqləri və digər sənədlərindən, həmçinin Azərbaycan Respublikasının rəsmi sənədlərindən də istifadə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Şərqi Avropanın Avropa təhlükəsizlik sistemindəki özünəməxsus yeri və müasir şəraitdə əhəmiyyətli bölgəyə çevrilmiş reallığı faktlar və arqumentlərlə sübuta yetirilmişdir.Tədqiqat işinin elmi yeniliyi aşağıdakıları özündə ehtiva edir:

- Problem Azərbaycan siyasi elmində ilk dəfə olaraq kompleks şəkildə elmi tədqiqat işi kimi araşdırılmış və nəticələr əldə olunmuşdur;

- Mövzu üzrə faktların toplanması, sistemləşdirilməsi və təhlili əsasında Şərqi Avropanın mühüm geosiyasi əhəmiyyəti və Avropa təhlükəsizliyindəki yeri müəyyənləşdirilmişdir;

- Şərqi Avropa ölkələrinin NATO və Avropa İttifaqına inteqrasiya prosesi ilə bağlı bir sıra konseptual sənədlərin öyrənilməsi və istifadə edilməsi nəticəsində ilk dəfə elmi dövriyyəyə bir sıra fakt və material cəlb edilmişdir;

- Şərqi Avropa ölkələrinin Avropa İttifaqının inteqrasiya proseslərində, xüsusən də ümumi xarici və təhlükəsizlik siyasətində iştirakı ətraflı araşdırılmış, bölgə ölkələrinin mövqeləri öyrənilmiş, müqayisəli təhlil edilmiş və sistemləşdirilmişdir;

- NATO və Avropa İttifaqının Şərqi Avropa ilə bağlı siyasətinin nəzəri-doktrinal əsasları və praktiki məsələləri geniş siyasi təhlil müstəvisinə çıxarılmışdır;

- Azərbaycan siyasi elmində ilk dəfə olaraq tədqiqat predmeti ilə bağlı xaricdə nəşr olunmuş mənbələr və ədəbiyyatlar elmi dövriyyəyə cəlb olunmuşdur.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.** Tədqiqat işinin müddəaları və nəticələrindən beynəlxalq münasibətlər və siyasi elmlər, eləcə də regionşünaslıq sahəsində problemlə bağlı gələcək tədqiqat işlərinin yazılmasında, ali məktəblərdə siyasi elmin müvafiq kursları, mühazirə və məşğələlərin keçirilməsində, dərslik, dərs vəsaitlərinin, ümumləşdirilmiş elmi əsərlərin hazırlanmasında, eləcə də xüsusi kursların oxunmasında istifadə oluna bilər.

Dissertasiyanın materialları Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində, xarici siyasət və təhlükəsizlik məsələləri ilə məşğul olan idarələr, eləcə də bu sahədə çalışan mütəxəssislər üçün vasitə kimi faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Slavyan Universitetinin «Beynəlxalq münasibətlər» kafedrasında yerinə yetirilmiş və müdafiəyə tövsiyə olunmuşdur. İşin əsas məzmunu iddiaçının Azərbaycanda və xaricdə nəşr edilmiş elmi əsərlərində, elmi-nəzəri, elmi-praktik konfranslarda etdiyi çıxışlarda öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «**Giriş**»ində tədqiq olunan mövzunun elmi aktuallığı və əhəmiyyəti əsaslandırılmış, problemin işlənmə səviyyəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti,

elmi yeniliyi göstərilmiş, tədqiqatın nəzəri-metodoloji əsasları, mənbəşünaslıq bazası, həmçinin tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti şərh olunmuş, işin aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

**«Soyuq müharibənin başa çatması və Avropada mövcud təhlükəsizlik sistemlərinin dəyişməsi»** adlanan birinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci fəslin **«Soyuq müharibənin başa çatması və Şərqi Avropada təhlükəsizlik paradiqmalarının dəyişilməsi»** adlanan birinci yarımfəslində soyuq müharibənin son mərhələsində Şərqi Avropada başlanmış sistemli dəyişikliklərin dərin kataklizmlər doğurmadığı qeyd olunaraq bölgə ölkələrində həyata keçirilən islahatların (məs,Polşada Balseroviç islahatları) tempi, gedişatı və nəticələri göstərilmiş, SSRİ (sonralar Rusiya), ABŞ və Qərbi Avropa ölkələrinin yaranmış vəziyyətdə davranışı və onların mənafeləri təhlil edilmişdir.

Yarımfəsildə postsoyuq müharibə dövründə Şərqi Avropada təhlükəsizlik paradiqmalarının dəyişilməsi araşdırılmış, təhlükəsizlik sistemlərinin dəyişməsinə təsir göstərən amillər və əsas nəticələr göstərilmişdir. 1980-ci illərin sonu- 1990-cı illərin əvvəllərində sosializmin iflası Şərqi Avropada yeni geosiyasi dəyişikliklərin əsasını qoydu. Bu iflasın geosiyasi aspektləri milli təhlükəsizlik paradiqmalarının dəyişilməsinə və vahid Ümumavropa təhlükəsizlik sisteminin formalaşmasına təkan verdi.

Bloklu qarşıdurmasının səngiməsi Avropanın Qərbi ilə Şərqi arasında ideoloji ziddiyyətləri aradan qaldırmış oldu. Məlumdur ki, Şərqi Avropanın təhlükəsizlik paradiqmasının bazasını kommunist ideologiyası təşkil edirdi. Soyuq müharibənin son fazasında ideoloji qarşıdurmanın aradan qalxmasına bir sıra amillər: SSRİ rəhbərliyinin dəyişilməsi və Brejnev doktrinasından imtina etməsi, Şərqi Avropada demokratik seçkilərin keçirilməsi, Qərb institutlarının Şərqi Avropada fəallaşması və təbii ki, bölgədə baş verən daxili-siyasi proseslər təsir göstərdi. 1989-1991-ci illərdə bölgə ölkələrində keçirilən demokratik seçkilərin nəticələrinə görə Şərqi Avropada hakim mövqeyə malik kommunistlər hakimiyyəti müxalifət partiyalarına təhvil verdilər. Bu proses Polşa və Macarıstanda «dəyirmi masalar» formatında aparılaraq tamamlandı. Kommunistlər Rumıniya istisna olmaqla digər ölkərdə siyasi arenanı dinc şəkildə tərk etdilər. Şərqi Avropada kommunist ideologiyasının süqutu dolayısı ilə Qərb və Şərq arasında qırx il davam edən ideoloji qarşıdurmanın sonunu və İkinci Dünya müharibəsindən sonra bərqərar olmuş ideoloji əsaslı təhlükəsizlik paradiqmasının dəyişilməsini ifadə etdi.

SSRİ dağıldıqdan sonra Şərqi Avropa Qərb üçün boz təhlükəsizlik zonası idi. Qərb ölkələri iqtisadi və siyasi planda qısa zaman ərzində Şərqi Avropa ilə sıx əlaqələr yaratsalar da, təhlükəsizlik sahəsində ehtiyatlı mövqe nümayiş etdirdilər. Belə ki, əvvəllər Şərqi Avropanın təhlükəsizliyinin məhz bölgə ölkələrinin təmin edəcəyi fikri mövcud idi. Lakin geosiyasi boşluğu doldurmağa tələsən və NATO-nun transformasiyası vasitəsilə Avropada hərbi-siyasi mövcudluğunu qoruyub saxlamağa çalışan ABŞ Şimali Atlantika İttifaqının genişlənməsi haqda qərarını yaxından dəstəklədi. Beləliklə, NATO-nun məsuliyyət zonası boz təhlükəsizlik məkanını əhatə etməyə başladı. Bununla da, Şərqi Avropa ölkələrinin öz potensialları əsasında bölgənin təhlükəsizliyini təmin edəcəyi ilə bağlı fikirlər təsdiqini tapmadı. Soyuq müharibədən sonra formalaşmış Şərqi Avropanın təhlükəsizliyinin bölgə ölkələri tərəfindən təmin ediləcəyinə dair yanaşma, yəni təhlükəsizlik paradiqması dəyişilmiş oldu.

XX əsrin sonu- XXI əsrin əvvəllərində Rusiyanın bölgə ilə bağlı yeritdiyi siyasət bu ölkənin imperiya ambisiyalarından imtina etmədiyi reallığını ortaya çıxardı. Rusiyadan gələ biləcək ənənəvi və artıq formalaşmış təhlükə əsasən hərbi-siyasi xarakterli ola bilərdi, lakin bu paradiqma da dəyişikliyə uğradı. Şərqi Avropa ölkələrinə aydın oldu ki, onların Rusiya ilə əlaqələrində enerji təhlükəsizliyi hərbi-siyasi təhlükəsizlikdən az əhəmiyyət kəsb etmir. 2008-cu ilin sonu- 2009-cu ilin əvvəlllərində Avropaya qaz nəqli ilə bağlı Rusiyanın atdığı sərt adddımlar buna bariz nümunədir.

Birinci fəslin **«Ümumavropa təhlükəsizliyi: yeni təhdidlər və təhlükəsizlik modelləri»** adlanan ikinci yarımfəslində soyuq müharibədən sonra «təhlükəsizlik» anlayışının daha geniş spektr məsələləri əhatə etdiyi göstərilmiş və təhlükəsizlik modelləri təhlil edilmişdir.

Artıq Avropa və Avroatlantik ölkələrinin əksəriyyəti üçün təhlükəsizlik qeyri-hərbi termin idi. Bu təhdidlərin arasında – qeyri səriştəli idarəçilik, korrupsiya, mütəşəkkil cinayətkarlıq, təhlükəli sərhədlər, qaçaqmalçılıq (silahlar,narkotik vasitələr, insanlar), qeyri-qanuni miqrasiya, etnik və dini münaqişələr, KQS yayılması, təbii ehtiyatların çatışmazlığı (məsələn,su) və əlbəttə ki, terrorizm var idi.

Soyuq müharibədən sonra Avropa təhlükəsizliyi və müdafiəsinin qurulması üçün əsasən üç model müzakirə mövzusu oldu:

Birinci model NATO vasitəsilə ikiqütblü sistemin Sovet İttifaqı və onun müttəfiqlərinin həyata keçirdikləri dəyişikliklərə uyğunlaşdırılması məqsədini daşıyırdı. İkinci model Şərqlə Qərb arasında ortaq normalar, qaydalar və qərar vermək prosedurları haqqında razılaşmaya əsaslanırdı. Bu

yeni üsul bütün Avropa ölkələrinin Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM-ATƏT) çərçivəsində əməkdaşlıq edərək öz təhlükəsizliklərini həll etməyə yönəlmiş səylərini özündə ehtiva edir. Bu səyləri BMT Təhlükəsizlik Şurasına bənzər «Avropa Təhlükəsizlik Şurası» qurmaq cəhdləri kimi dəyərləndirmək olar. Üçüncü model isə, mümkün olan bütün sahələrdə Qərbi Avropa mərkəzçiliyi əsasında inteqrasiyanı hədəfləyərək Avropa ölkələrinin öz təhlükəsizliklərini təmin etmək üçün əməkdaşlıq etməyin vacibliyini nəzərdə tutur. Birinci və ikinci model arasında çox sıx əməkdaşlıq və qarşılıqlı əlaqə mövcuddur. ATƏT ikinci dünya müharibəsindən sonra iki hissəyə ayrılmış Avropa ölkələri arasındakı əməkdaşlığı təmin etməyi hədəfləyirdi. Üçüncü model isə əvvəlki modellərdən çox fərqli, müstəqil və inteqrasiyanı hədəfləyən inkişaf nümayiş etdirmişdir.

Yarımfəsildə soyuq müharibədən sonra Avropa təhlükəsizliyində mühüm rol oynayacağına ümidlər bəslənən ATƏT-in fəaliyyətinin səmərəsizliyi qeyd olunmuşdur. ATƏT-in keçmiş Yuqoslaviyada və Cənubi Qafqazda baş vermiş münaqişələrlə bağlı missiyaları fəaliyyət göstərmiş,lakin nəticədə təşkilat hər iki bölgədə ikinci dərəcəli rol oynamış və əsasən postmünaqişə nizamlanması ilə məşğul olmuşdur. Bosniya-Herseqovinada olduğu kimi Kosovadakı ATƏT missiyası da burada institusional quruculuq və demokratiyanın möhkəmlənməsi ilə bağlı məsələlərdə aparıcı rol oynamışdır. Hər iki halda münaqişənin həlli ilə birbaşa NATO məşğul olmuş, ATƏT-in üzərinə isə müharibədən sonrakı nizamlanma və bərpa işləri çərçivəsində çətin və uzunsürən iş düşmüşdür.1998-ci ilin sonunda Kosovadakı ATƏT missiyasının işini dayandırması və sülhyaratma funksiyalarını NATO –ya verməsi bu təşkilatın serblərlə Kosovo albanları arasındakı münaqişənin tənzimlənməsində iştirakdan de-fakto imtina etməsi demək idi. «Kollektiv təhlükəsizlik» sistemi nümunəsi kimi yaradılmış ATƏT Avropada öz əhəmiyyətini artırmaq əvəzinə keçən dövr ərzində qarşısına qoyduğu məqsədlərini həyata keçirmək və zəruri mexanizmlərə malik olmaması səbəbindən qitə təhlükəsizliyində mərkəzi rol oynamaq iqtidarında olmadı.

Paralel olaraq, Avropa təhlükəsizliyinin qərbmərkəzçiliyi modeli inkişaf etməyə başladı və getdikcə ATƏT-in panavropa modelini sıxışdırmağa çalışdı.Qərbmərkəzçiliyi modelin sistem yaradan mərkəzləri NATO və Avropa İttifaqı oldu və onun yaradılması prosesində lider rolunda ABŞ çıxış etdi. ABŞ və Qərbi Avropa ölkələri arasında bir sıra məsələlərə münasibətdə ziddiyyətlər olmasına baxmayaraq, onlar Avropa

təhlükəsizliyinin gələcək sisteminin fəlsəfəsi ilə bağlı kifayət qədər möhkəm konsensus yaratmağa nail oldular.

**«Şərqi Avropa və NATO-nun şərqə doğru genişlənməsi strategiyası»** adlanan ikinci fəsil üç yarımfəsildən ibarətdir. İkinci fəslin **«NATO və Şərqi Avropa: geosiyasi maraqlar»** adlı birinci yarımfəslində NATO-nun soyuq müharibədən sonra qəbul etdiyi strateji sənədlərə diqqət yetirilmiş və qəbul etdiyi qərarlar təhlil olunmuşdur.

Yeni təhlükəsizlik şəraitini adekvat qiymətləndirən NATO Şərqi Avropada, eyni zamanda postsovet məkanında yaranmış strateji boşluğu doldurmaq üçün vaxt itirmədən hərəkətə keçdi. NATO əgər soyuq müharibə dövründə 30 il müddətində (1952-82-ci illər) yalnız dörd ölkə hesabına genişlənə bilmişdirsə, Soyuq müharibədən sonra, yəni 10 il ərzində (1999-2009) üzvlüyə qəbul etdiyi on iki ölkə hesabına Şərqi Avropaya doğru böyük ölçüdə genişlənmişdir. Alyansın tərkibinin və məsuliyyət zonasının genişləndirilməsi məsələsində Qərb dövlətləri ilə Şərqi Avropa ölkələrinin təhlükəsizlik sahəsində maraqlarının üst-üstə düşməsi bu prosesin uğuruna təminat verən amillərdən oldu.

NATO üçün Şərqi Avropanın önəmi böyükdür. Bu bölgənin mühüm əhəmiyyət kəsb edən ölkələri vardır ki, onlar vasitəsilə qitənin bütün ucqar nöqtələri və iri strateji dəhlizlərini idarə etmək mümkündür. Bu boşluğun doldurulması NATO-nun qüdrətini, çevikliyini artıra bilər, eləcə də birmənalı olaraq Avroatlantik bölgənin qurulmasını başa çatdırmış olardı. Həm də qitədən kənarda hava məkanı, əlaqə sistemləri üzərində mərkəzləşdirilmiş nəzarəti möhkəmləndirə bilərdi. Bu Alyansın maraqlarını onun məsuliyyət perimetrindən kənarda həyata keçirməyə imkan verə bilər və NATO-nun qlobal güc amili statusunu artırardı.

Avroatlantik təhlükəsizliyin təmini baxımından NATO-nun genişlənməsi labüd oldu. Geosiyasi baxımdan vacib əhəmiyyət daşıyan Polşa, Macarıstan və Çexiyanın İttifaqa qəbulu Avropanın mərkəzində yerləşən Almaniyanı və Alyansın şərq cinahını təmin etməklə yanaşı NATO-nun Baltikdə mövqelərini möhkəmləndirdi. NATO qitədə mövqelərini gücləndirməyə üstünlük verərək şərqə doğru növbəti genişlənmə dalğasında Şərqi Avropanın yeddi ölkəsini - Qara dəniz bölgəsində möhkəmlənmək və geosiyasi baxımından mühüm əhəmiyyət kəsb edən Cənub-Şərqi Avropa ölkələrini – Rumıniya və Bolqarıstanı, Mərkəzi Avropada cinahını gücləndirmək məqsədilə Slovakiya və Sloveniyanı, Baltik dənizində və qitənin şimal-şərqində cinahını təmin etmək üçün isə üç Baltikyanı ölkəni – Estoniya, Latviya və Litvanı sıralarına qəbul etməyi qərarlaşdırdı.

2002-ci ildə Alyansa üzvlüyə dəvət almış ölkələri tərkibinə qatmaqla NATO aşağıdakı geosiyasi məqsədlərinə xidmət etmiş olurdu:

- Baltik ölkələrinin qatılması ilə şimal cinahını gücləndirmək, bununla da Finlandiya ilə əlaqələri və Aİ-nin bu bölgəyə genişlənməsi prosesini balanslaşdırmağı təmin etmək;
- Polşa və Macarıstanın cinahını təmin etmək və Slovakiyanın qoşulması yolu ilə Alyansın quru sərhədlərinin düzəldilməsi;
- Rumıniya və Bolqarıstanın NATO-ya qəbul olunması ilə İttifaqın mərkəzi ərazilərinin Türkiyə və Yunanıstanla birləşdirilməsi. Bu Avropaya yönəldilmiş ballistik raketlərin mümkün trayektoriyasını nəzərə alaraq qitənin hava məkanı üzərində mərkəzləşdirilmiş nəzarəti gücləndirər, mütəşəkkil cinayətkarlıq və qeyri-qanuni miqrasiya ilə mübarizə planında Qara dəniz regionu üzərində nəzarəti, eləcə də Qafqaza, Xəzər dənizi bölgəsinə və Yaxın Şərqə silahlı qüvvələrin göndərilməsini asanlaşdırardı. Bu ölkələr Şərqi Avropanın müttəfiq ölkələri arasında «təhlükəsizlik» körpüsü (eləcə də təhlükəsiz güc dəhlizi) qurmağa, Balkanlarda sabitlik faktoru kimi qalmağa qadir ölkə olduqlarını isbat etdilər.

NATO 2009-cu ildə Xorvatiya və Albaniyanı tərkibinə qatmaqla həm Balkanlarda mövqelərini, həm də Aralıq dənizi bölgəsində tam nəzarəti təmin etməklə coğrafiyasını genişləndirdi.

NATO-nun soyuq müharibənin son illərində qorunub saxlanılması və ya buraxılması haqda suallara NATO öz funksiyalarının əhatəsini, fəaliyyət istiqamətlərini genişləndirməklə cavab verdi. O nəinki dəyişiklikləri uğurla həyata keçirdi, özünü qoruyub saxlayaraq Avropa təhlükəsizlik sistemində öz yerini əhəmiyyətli dərəcədə möhkəmləndirdi və Avroatlantika bağlarını qoruyub saxlaya bildi. Şərqi Avropa ölkələri hesabına şərq istiqamətində əhəmiyyətli dərəcədə genişləndi.

İkinci fəslin **«Şərqi Avropa dövlətlərinin Şimali Atlantika təhlükəsizlik sisteminə inteqrasiyası: standartlar və struktur dəyişiklikləri»** adlı ikinci yarımfəslində Şərqi Avropa ölkələrinin NATO-ya qəbulu prosesinin əsas mərhələləri göstərilərək ətraflı araşdırılmış və namizəd ölkələr üçün müəyyənləşdirilmiş şərtlərin yerinə yetirilməsi və islahatların həyata keçirilmə dinamikası təhlil edilmişdir.

1990-cı illərin əvvəllərində bir sıra Şərqi Avropa ölkələri mühüm siyasi islahatlar keçirərək ictimai və siyasi quruluşlarının mahiyyətini dəyişdirdilər, ümumbəşəri demokratik dəyərləri qəbul etdilər. Onların yeni konstitusiyaları siyasi həyatda pluralizm, real çoxpartiyalılıq, ictimai hərəkatların müxtəlifliyinə təminat verirdi.

NATO standartlarına uyğun ordu qurmaq üçün Şərqi Avropa ölkələrinin hökumətlərinin qısa müddətdə yerinə yetirəcəyi əsas standartlar aşağıdakı istiqamətləri əhatə edirdi:

- silahlı qüvvələrin peşəkar səviyyəsinin artırılması və orduların sayının azaldılması;
- böhranların idarə edilməsi üçün bacarıqların artırılması;
- Vaşinqton Müqaviləsinin 5-ci maddəsi ilə nəzərdə tutulmuş əməliyyatlarda iştirak etmək üçün Alyansın üzvlərinin Silahlı Qüvvələrinin və NATO-nun müdafiə sistemi ilə qarşılıqlı əlaqə qabiliyyətinə nail olmaq;
- hərbi idarəçilik sisteminin sadələşdirilməsi;
- orduların sülh rejimindən hərbi fəaliyyətə keçirilməsi mexanizminin mükəmməlləşdirilməsi;
- hərbi təhsil sisteminin və hərbi-təlimə hazırlığının yenidən qurulması və modernləşdirilməsi;
- ayrılmış vəsaitlərin səmərəli idarə olunması;
- doktrinal və konseptual sistemlərin (struktur, təchizat, hərbi-təlim hazırlığı, dinc dövrdə fəaliyyət, böhranlar zamanı və hərbi vəziyyətdə fəaliyyət) işlənib hazırlanması.

Qeyd olunmalıdır ki, NATO standartlarına uyğunlaşma silahlı qüvvələrdən maksimal səmərəlilik tələb edirdi. Onların ümumi sayı deyil, məhz qısa zaman ərzində münaqişə zonasına çoxlu mobil qruplaşmalar göndərməyin mümkünlüyü vacib idi. Bu prinsipdən çıxış edərək Şərqi Avropa ölkələri müqavilə əsasında orduya mərhələli keçid prosesinə start verdi. Hal-hazırda Vıseqrad Qrupu ölkələrində bu proses başa çatmış, digərlərində isə başa çatmaqdadır. Pentaqonun hesablamalarına görə, 2009-cu ilədək Polşa,Çexiya və Macarıstanın silahlı qüvvələrinin yenidən qurulmasına Alyans 25 mlrd. ABŞ dolları sərf etmişdir. Ölkələrin özləri isə cəmi 10-13 mlrd. dollar xərcləmişlər.

NATO-ya qoşulmuş ölkələrin hərbi islahatlarının əsas nəticəsi silahlı qüvvələrin (SQ) sayının bir neçə dəfə azaldılması oldu. Məsələn, NATO-ya qatılmamışdan öncə Çexiya və Macarıstan SQ 200 min nəfər idisə, Alyansa qəbuldan sonra onların sayı müvafiq olaraq 55 min və 35 min nəfərə endirildi.1990-cı ildə Polşa SQ-nin sayı 400 min nəfərə yaxın idisə, hal-hazırda 160 min nəfərə qədərdir .

NATO Şərqi Avropa ölkələrini öz tərkibinə qatmaqla bu ölkələrin ərazilərində yerləşən hərbi bazaları qısa zaman ərzində nəzarəti altına aldı. Alyansın Polşada iri tədris mərkəzi, Macarıstanda «Papa» aviabazasında ilk çoxmillətli strateji hava-nəqliyyat əməliyyatı həyata keçirilir. Litvadakı keçmiş Sovet aviabazası da tam onun ixtiyarındadır.

İkinci fəslin **«Şərqi Avropa-NATO bloku və Rusiya: ziddiyyətlər və siyasi dialoq»** adlanan üçüncü yarımfəslində SSRİ-nin hüquqi varisi kimi postsovet məkanında yeganə nüvə dövləti olan Rusiyanın Şərqi Avropa ilə bağlı maraqları araşdırılmış və bu ölkənin yeni ümümavropa təhlükəsizlik sisteminin qurulmasında iştirakı, irəli sürdüyü əməkdaşlıq modelləri və NATO-nun şərqə doğru genişlənməsinə mənfi münasibəti təhlil edilmişdir.

Yeni Avropa təhlükəsizliyinin formalaşması ilə bağlı Rusiya ilə Qərb dövlətləri arasında əsas münaqişəli məsələlər ümumi konsepsiya, NATO-nun genişlənməsi, Balkanlardakı münaqişələrin həlli və Şərqi Avropa ölkələrində raketdən müdafiə sistemlərinin (RMS) yerləşdirilməsi məsələsi idi.

1990-cı illərdə Rusiya Federasiyası ilə NATO arasındakı əlaqələrdə mənfi dinamika dəyişilmədi. Hətta bu münasibətlər Kosovo böhranı ilə bağlı daha çox kəskinləşərək gərginliyin pik nöqtəsinə çatdı. Kosovo münaqişəsinin diplomatik tənzimlənməsindən həmən sonra Moskva NATO ilə razılaşmadan Bosniya və Herseqovinada sülhməramlı funksiyalar yerinə yetirən Rusiya mobil birləşmələrini Kosovoya, Priştina şəhərinin hava limanı ərazisinə göndərdi. Halbuki bu ərazi rusiyalı sülhməramlılar üçün ayrılmış və razılaşdırılmış məsuliyyət zonasına daxil deyildi. Yalnız amerikalı qoşunlara komandanlıq edən general Klarkın Priştinaya göndərilən rus qüvvələrinin dayandırılması haqda əmrini yerinə yetirməyən bu ərazidə xidmət göstərən britaniyalı zabitlərin təmkinliyi və ehtiyatlı davranması NATO qüvvələri ilə rus hərbçiləri arasında çox ciddi nəticələrə gətirib çıxara biləcək mümkün toqquşmanın qarşısını aldı.

Lakin 2001-ci il 11 sentyabr hadisələrindən sonra dünyada qlobal strateji vəziyyətin dəyişməsi nəticəsində Rusiya Federasiyası ilə NATO arasında dondurulmuş münasibətlər bərpa edildi. Beynəlxalq terrorizmlə mübarizə vəzifələri, kütləvi qırğın silahlarının yayılmaması, eləcə də bu mübarizədə Rusiyanın ABŞ və Avropa ilə əməkdaşlıq etmək kursu götürməsi ön plana keçdi. Bununla belə, Rusiya Federasiyası əvvəlki tək öz prinsipial mövqeyində qalmaqda idi və bu ölkə NATO-nun genişlənməsinə Avropa təhlükəsizliyinin möhkəmləndirilməsinə əngəl kimi baxırdı.

NATO-nun genişlənməsi prosesini dayandırmağın qeyri-mümkünlüyünü görən Rusiya postsovet məkanında təhlükəsizlik sahəsində əməkdaşlığı yeni formatda inkişaf etdirməyə üstünlük verdi. Rusiyanın xüsusi səyləri nəticəsində KTMT MDB çərçivəsindən çıxaraq hərbi-siyasi əməkdaşlıq sahəsində müstəqil inteqrasiya mexanizminə çevrildi. Lakin keçən illər ərzində Rusiyanın başçılığı altında altı postsovet ölkəsini birləşdirən KTMT təhlükəsizlik sahəsində fəaliyyət göstərən bir qurum

kimi özünü doğrulda bilmədi. Nəticədə Rusiyanın Avropada NATO-ya bənzər ikinci blok formalaşdırmaq niyyəti boşa çıxdı.

Nəticə etibarilə, NATO-nun şərqə doğru genişlənməsi, yəni Rusiya sərhədlərinə daha da yaxınlaşması getdikcə bu ölkənin prosesə olan mənfi reaksiyasını daha da sərtləşdirərək bölgədə münaqişəli şəraitin yaranmasına yol açır. Gürcüstan və Ukraynanın nümunəsində NATO-nun genişlənmə siyasətinin artıq regional qeyri-sabitlik faktoruna çevrildiyi də göz önündədir. Rusiyanın Ukrayna və Gürcüstanın Alyansa mümkün üzvlüyünə qarşı çıxması bir çox səbəblərlə izah olunur: Əvvəla, bu ölkələrin NATO-ya qəbulu Rusiyanın Qara dəniz üzərindəki nəzarətini təhlükə altına qoya bilər; İkincisi, Ukrayna əhalisinin 20%-ni etnik ruslar təşkil edir; Üçüncüsü, Ukrayna və Gürcüstanın NATO-ya üzvlüyü ilə Rusiya NATO ölkələrinin «mühasirəsi» həlqəsinə düşür. Alyans cənubdan və şərqdən Rusiyanı əhatə etmiş olur.

Dissertasiyanın üçüncü fəsli **«Şərqi Avropa ölkələri və Avropa İttifaqı çərçivəsində təhlükəsizlik məsələləri»** adlanır və üç yarımfəsildən ibarətdir. Üçüncü fəslin birinci yarımfəsli **«Şərqi Avropa ölkələrinin Avropa İttifaqına inteqrasiyasında təhlükəsizlik amilləri»** adlanır. Bu yarımfəsildə Şərqi Avropa ölkələrinin Avropa İttifaqına inteqrasiyasına təkan verən proseslər, onun mərhələləri və səciyyəvi xüsusiyyətləri, bu ölkələrin Aİ-yə inteqrasiyasının təhlükəsizlik amilləri təhlil olunmuşdur.

Aİ-yə inteqrasiya edən Şərqi Avropa ölkələrinin ümumi xarakterik cizgiləri olsa da, Avropa inteqrasiyası kontekstində bu ölkələrin hər biri öz xüsusiyyətləri ilə seçilirdi. Aİ-nin şərqə doğru genişlənməsi presendenti olmayan siyasi və iqtisadi baxımdan unikal bir prosesdir.

Şərqi Avropa ölkələrinin Aİ-yə inteqrasiyası Birliyin iqtisadi, sosial, institusional və digər islahatlarının keçirilməsi üçün mühüm stimullaşdırıcı və birləşdirici amil idi. Şərqi Avropa ölkələrinin Aİ-yə mümkün qəbulu dünyanın maliyyə institutlarının etimad mənbəyi idi və namizəd ölkələri xarici sərmayələr üçün daha cəlbedici edirdi.

Qərb ölkələrinə nisbətən zəif Şərqi Avropa ölkələrinin Aİ-yə dəvət alması siyasi motivasiyalı bir addım kimi qiymətləndirilir. Bu ölkələrin Aİ-yə qəbulunun İttifaqın iqtisadi mənafelərindən deyil, siyasi və daha çox təhlükəsizlik maraqlarından irəli gəldiyi qeyd olunmalıdır. Belə ki, soyuq müharibədən sonra qitədə yaranmış strateji vəziyyət şərqdə yaranmış boşluğun doldurulmasını labüd edirdi.

Şərqi Avropa ölkələrinin Aİ-yə inteqrasiyasını asanlaşdırmaq, iqtisadi və maliyyə böhranının qarşısını almaq üçün yardılmış maliyyə və texniki yönlü yardım proqramları (FARE,SAPARD,FEOQA və s.) və layihələrin

həyata keçirilməsi Şərqi Avropa ölkələrinin inteqrasiyasına müsbət təsir göstərdi.

Şərqi Avropanın keçmiş sosialist ölkələrinin Aİ-yə qəbul olunması ilə Avropanı bölən bölücü xətlər aradan qaldırılmış oldu. Az itki verməklə Avropa yenidən bütövləşə bildi. Lakin üzvlərin sayı artdıqca Aİ-də böyük və kiçik ölkələrin maraqlarını balanslaşdırmaq çətinləşir. Belə ki, Aİ-yə daxil olan Şərqi Avropa ölkələrinin hamısı böyük dövlətlər kateqoriyasına aid deyil, hətta əhalinin sayı baxımından Avropa miqyasında böyük görünən ölkə, iqtisadi cəhətdən Qərbi Avropanın aparıcı ölkələri ilə müqayisədə cırtdan təsiri bağışlayırdılar. Misal olaraq Polşa və Rumıniyanı göstərmək olar.

Avropa İttifaqının genişlənməsi nəticəsində İttifaq daxilində təbəqələşmə sezilməkdədir. İttifaqa nisbətən zəif üzvlərin qəbul edilməsi fonunda güclü dövlətlərin rolunun güclənməsi bu inteqrasiya qruplaşmasında təbəqələşməyə gətirib çıxara bilər. Nəticədə üç qeyri-formal həlqə yarana bilər ki, mərkəzini – Almaniya, Fransa və bəlkə də Böyük Britaniya, orta hissəni – yüksək inkişaf səviyyəli Qərbi Avropa ölkələri və yeni qəbul olunmuş, amma kifayət qədər uğurlu olan ölkələr təşkil edə bilər. Yerdə qalan ölkələr «kiçik qardaş» kateqoriyasına aid edilə bilərlər.Təbii ki, xarici siyasət və təhlükəsizlik məsələlərinin həllində mərkəzi təşkil edən ölkələrin səsi həlledicidir.

Üçüncü fəslin **«Şərqi Avropa ölkələrinin Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin formalaşmasında iştirakı»** adlı ikinci yarımfəslində Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin (ÜXTS) təkamülü, onun soyuq müharibədən sonrakı inkişafı, Şərqi Avropa ölkələrinin bu prosesdə iştirakı və nəticələri tədqiq edilərək təhlil edilmişdir.

İttifaqın şərqi avropalı üzvlərinin xarici siyasəti klassik xarici siyasət kateqoriyaları ilə xarakterizə olunur. Bu Almaniya və Rusiya arasında təsir dairələrinə bölünmə qorxusu olan Şərqi Avropanın böyük dövlətlərini ABŞ-ın xeyrinə seçim etməyə və öz təhlükəsizliklərini NATO-nun zəmanəti altında təmin etməyə vadar edir.

Şərqi Avropa dövlətləri Aİ-dən, xüsusən də ÜXTS-dən imtina etmirlər, bu strukturlara Avropada yeni təhlükəsizlik mühitinin həyata keçirilməsi üçün alternativ əsas kimi, bir növ NATO-nun xüsusi bölməsi kimi baxırlar. Xarici siyasət məsələlərində «köhnə» və «yeni» Avropa arasında məlum anlaşılmazlıq buradan irəli gəlir. Rusiya tərəfindən gələ biləcək hər hansı bir təhdid bölgə ölkələrini Aİ ilə deyil, məhz ABŞ-la hərbi-siyasi əməkdaşlığı artırmaq haqda ikitərəfli danışıqlarına və qarşılıqlı öhdəliklər

götürməyə sövq edir. Şərqi Avropa ölkələrinin (xüsusən Polşa və Baltikyanı ölkələrin) belə mövqeləri 2008-ci il Rusiya-Gürcüstan müharibəsi və Krımın Rusiya tərəfindən ilhaqından sonra daha açıq şəkildə ifadə olunur.

Şərqi Avropa ölkələrinin Aİ-yə üzv olduqdan sonra ÜXTS-nin inkişafına təsir edə biləcək digər amil kimi İttifaq daxilində üzvlərin aralarında razılaşmaları və ittifaqa qabil olmaları göstərilə bilərdi. Şərqi Avropa ölkələrinin xarici siyasət davranışına tarixi yaddaş amili və yuxarıda göstərilmiş alman və rus amili böyük təsir göstərir. ABŞ-ın Avropadan gedişi onlar üçün yaxşı halda Şərqi Avropa ölkələrinin «Almaniya-Fransa» oxunun, pis halda isə Rusiyanın tabeliçiliyinə keçməsi deməkdir. Bölgə ölkələri Rusiyaya bir qayda olaraq iqtisadi və siyasi şantaja əsaslanan xarici siyasət yeridən (dəyişkən və çətin təxmin olunan) qonşu kimi baxırlar. Qeyd etmək vacibdir ki, məhz Şərqi Avropada RƏM sistemlərinin yerləşdirilməsi ilə bağlı danışıqlar həm transatlantik münasibətlərə, həm də ABŞ-la Rusiya arasında əlaqələrinə mənfi və xüsusi qıcıqlandırıcı təsir göstərdi.

Şərqi Avropa ölkələrinin Aİ-yə qoşulmaları üçün əsas motivasiyası – təhlükəsizlik mülahizələri və kollektiv müdafiə sisteminə qoşulmaq deyildi. Əsas səbəb demokratik dəyərlərə əsaslanan və dünyanın ən inkişaf etmiş regional iqtisadi kompleksinə üzv olmaq idi. Beləliklə, ideologiya səviyyəsində (demokratik özünəməxsusluğu) və praqmatik siyasət (Aİ-yə üzvlük sayəsində öz iqtisadiyyatının inkişafının sürətləndirilməsinə ümidlər) səviyyəsində seçim edildi. Bölgə ölkələri konsensus əsasında razılaşdırılmış variant axtarmağa çalışırlar və bu heç də hər zaman Avropa inteqrasiyasına müsbət təsir göstərmir.

Üçüncü fəslin üçüncü yarımfəsli **«Avropa İttifaqına üzv olmayan Şərqi Avropa ölkələrinin Avropanın enerji təhlükəsizliyində rolu»** adlanır. Aİ-nin təşkilata üzv olmayan Şərqi Avropa ölkələrinə dair siyasətinin yeni mexanizmləri bu bölgə üçün nəzərdə tutulmuş yardım fondlarının strukturlarının dəyişdirilməsi ilə əlaqələndirilməlidir. Avropa İttifaqının şərq qonşuları ilə əməkdaşlığını altı əsas sahəyə bölmək olar: ümumavropa iqtisadi məkanı, daxili işlər və ədliyyə, ictimai dialoq, nəqliyyat infrastrukturu, demokratiyanın inkişafı və ümumavropa təhlükəsizliyi.

Avropa İttifaqında şərq qonşuları ilə əlaqələrin genişləndirilməsinə dair müzakirələr iki aspektdə aparıldı. Birincisi, bütün yaxın qonşu dövlətlərlə münasibətlərə dair ümumi strategiyanın işlənib hazırlanmasının labüdlüyü, ikincisi, Şərqdə Avropa İttifaqı ilə birbaşa qonşu olan və ya

ayrı-ayrı ölkələrlə bu qurumun münasibətlərinin perspektivi ətrafında aparıldı.

Bu ölkələrin çoxu Aİ-yə neft-qaz ixracını və tranzitini həyata keçirən ölkələrdir. Azərbaycan və Rusiya Avropaya neft–qaz ixrac edən, Gürcüstan və Ukrayna isə tranzit ölkə kimi Aİ üçün mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, Aİ öz daxili bazarına karbohidrogen ehtiyatlarının diversifikasiyasında maraqlıdır. Bu cəhətdən Cənubi Qafqaz bir tərəfdən Xəzər hövzəsinin təbii ehtiyatlarına daxil olmaq imkanı verir, digər tərəfdən Rusiya ərazisindən yan keçərək Mərkəzi Asiya və Xəzər dənizinin neft və qaz ehtiyatlarının daşınması üçün tranzit ərazi kimi çıxış edir.

Aİ-nın Cənubi Qafqaz siyasətinin motivasyon əsasını enerji və kommunikasiya yollarının təmini və buna nail olmaq üçün əsasını demokratik sabitliyin təminini təşkil edən regional sülh və əməkdaşlığa təminatlar təşkil edir. Aİ özünün enerji maraqlarını təmin etmək üçün Cənubi Qafqazda öz diqqətini bölgədə bazar iqtisadiyyatlı,səmərəli idarə olunan demokratik dövlətlər qurmaqla regional sabitlik və kooperasiyaya zəmanət verə bilər. Aİ-nın Mərkəzi Asiya və Qafqaz-Xəzər dənizi-Qara dəniz bölgələrində xarici siyasət və təhlükəsizlik siyasətinin əsasını məhz bu problem təşkil edir. Aİ digər xarici aktorlardan fərqli olaraq öz planlarını «yumşaq güc»ə əsaslanan dəqiq işlənib hazırlanmış layihələr vasitəsilə həyata keçirməkdədir.

Bolqarıstan və Rumıniyanın Aİ-yə tamhüquqlu üzv qəbul olunması şərq qonşulara münasibətdə yeni siyasətə imkanlar açdı. 2008-ci ilin mayında Aİ-nın iki üzvü Polşa və İsveç altı postsovet ölkəsinə yönəlik – «Şərq Tərəfdaşlığı» təşəbbüsü irəli sürdülər. Bu təşəbbüs Aİ-nin tərəfdaşları ilə həm ikitərəfli əlaqələrini genişləndirmək, həm də Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna arasında regional əməkdaşlığı dərinləşdirmək yolu ilə AQS-nin çatışmazlıqlarını neytrallaşdırmağı nəzərdə tuturdu.

Dissertasiyanın «**Nəticə**» hissəsində tədqiqata yekun vurulmuş, elmi-analitik ümumiləşdirilmələr aparılmış, habelə problemin həlli ilə bağlı fikirlər, nəzəri və praktik xarakterli təklif və tövsiyyələr irəli sürülmüşdür. Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, keçmiş sovet nüfuz dairəsinə daxil olan Şərqi Avropa ölkələrini əvvəl iqtisadi və siyasi cəhətdən öz maraq dairəsinə daxil etməyi bacaran Qərb dövlətləri soyuq müharibə illərində Avropanı iki hissəyə bölən bölücü xətləri aradan qaldırmaqla regionu rəhbərlik etdikləri təhlükəsizlik strukturlarına cəlb etməyə nail oldular.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində əks olunmuşdur:**


1. Şərqi Avropa ölkələri və NATO-nun şərqə doğru genişlənməsi strategiyası. // «Elm və Cəmiyyət» Elmi məqalələr məcmuəsi. II buraxılış. Bakı: «Kitab aləmi», 2006, s.154-156.

2. Взаимоотношения Украины с членами ЕС и НАТО. // «Elm və Cəmiyyət» Elmi məqalələr məcmuəsi. III buraxılış. Bakı: «Kitab aləmi», 2006, s.90-94.

3. Ümumavropa təhlükəsizliyi və Vışeqrad qrupu. // «Tarix və onun problemləri» Nəzəri,elmi və metodik jurnal. №3 Bakı, 2007. s. 180-184.

4. Avropada təhlükəsizlik sistemlərinin dəyişməsi kontekstində Şərqi Avropa ölkələrinin problemləri. // «Beynəlxalq hüquq və inteqrasiya problemləri» Elmi-analitik və praktiki jurnal. №1(9), Bakı, 2007. s.407-411.

5. Şərqi Avropada siyasi islahatlar: problemlər və əsas istiqamətlər. // «Tarix və onun problemləri» Nəzəri,elmi və metodik jurnal. №4, Bakı, 2009. s. 324-331.

6. Avropa İttifaqının inkişaf mərhələləri və şərqə doğru genişlənmənin perspektivləri. // Pedaqoji Universitet Xəbərləri (Humanitar elmlər seriyası). Bakı-№6, 2009. s.119-123.

7. Avropa İttifaqının genişlənməsi kontekstində onun şərq siyasəti. // Dirçəliş – XXI əsr., AMEA Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu.- № 145-146/ 2010. s.323-329.

8. Южно-кавказское направление стратегии НАТО на современном этапе. // Elmi Əsərlər (İctimai-siyasi elmlər seriyası). -№2, Bakı-2010. s.126-134.

9. Avropa İttifaqı və Azərbaycan: Əməkdaşlığın yeni mərhələsi. / «Azərbaycanşünaslığın aktual problemləri» Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş I Beynəlxalq elmi konfrans. 3-8 may 2010-cu il., Bakı-Naxçıvan-Gəncə. S.200-206.

10. Southern Caucasus countries and European Union: As stages of cooperation. / «Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya» III Beynəlxalq konqresin tezisləri., 15-17 oktyabr 2010. Bakı / Azərbaycan s.254-256.

11. NATO-nun şərqə doğru genişlənməsi və ABŞ-ın maraqları. // Dirçəliş – XXI əsr., AMEA Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu.- № 155-156/ 2011. s.342-350.

12. Şərqi Avropa ölkələrinin NATO-ya inteqrasiyasının hərbi-siyasi aspektləri. // «Tarix və onun problemləri» Nəzəri,elmi və metodik jurnal. №1, Bakı, 2011. s. 125-130.

13. Şərqi Avropa ölkələrinin Avropa İttifaqına inteqrasiyası. // Pedaqoji Universitet Xəbərləri (Humanitar elmlər seriyası). Bakı-№2, 2011. s.193 -198.

14. Отношения Грузии и НАТО на современном этапе. «Georgia: Previous Experiences, Future Prospects» : Caucasus Studies Institute, University of Tehran. 20 February 2011. S.128-130.

15. Azərbaycan-NATO tərəfdaşlığının əsas istiqamətləri. // «Azərbaycan-şünaslığın aktual problemləri» Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş II Beynəlxalq elmi konfransın materialları (II hissə), 4-7 may 2011-ci il., Bakı- Gəncə. S.113-121.

16. NATO-nun şərqə doğru genişlənməsi və Rusiya amili. / Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları. I Hissə. Bakı-2011. s.353-355.

17. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının ümumavropa təhlükəsizliyindəki rolu // «Journal of Qafqaz University». An International Journal. History, Law and Political Sciences. № 32., 2011. S.119-129.

18. Европейский Союз и Азербайджан: Стратегическое партнерство в сфере энергетики. / Материалы V Международной научно-практической конференции «Теория и практика современной науки». Том II, 3-4 апреля 2012 г. Москва-2012. С.349-354.

19 Европейский Союз и Азербайджан: Проблемы безопасности в структуре двустороннего сотрудничества. / Материалы Международной научно-практической конференции «Международные отношения и интеграционные проекты на постсоветском пространстве»., Часть I. (18-19 мая 2012 г.), Днепропетровск – 2012. С.41-43.

20. Avropa İttifaqının Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi. // «Azərbaycanşünaslığın aktual problemləri» Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-ci ildönümünə həsr olunmuş III Beynəlxalq elmi konfransın materialları, 2-5 may 2012-ci il., Bakı-Azərbaycan. S.445-448.

21. Avropada inteqrasiya prosesləri və Avropa İttifaqının ümumi xarici siyasət və təhlükəsizlik siyasətinin təkamülü. / «Müasir dünyada inteqrasiya və müqavimət prosesləri» Beynəlxalq elmi konfransının materialları. Bakı, Azərbaycan Universiteti, 9 iyun 2012-ci il. s. 27-31.

22. Геополитические интересы Европейского Союза на Южном Кавказе // «Гілея. Науковий вісник». Національний педагогічний університет імені М.П.Драгоманова.Українська Академія Наук. Випуск 60(№5). Київ,2012. стр.219-224.

23. Вопросы безопасности во взаимоотношениях Европейского Союза с Азербайджаном // «Межкультурные коммуникации». Международное научно-периодическое издание. № 18,Тбилиси., 2012.стр.98-104

24. NATO-nun strateji konsepsiyaları. // «Journal of Qafqaz University». An International Journal. History, Law and Political Sciences. № 34, 2012. s.113-123.

25. Rusiya – NATO münasibətlərində nüvə amili. / Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. I Hissə. Bakı-2012. s.378-381.

26. Soyuq müharibədən sonra ümumavropa təhlükəsizliyinə dair yeni baxışlar. / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransının materialları. 25-26 Aprel 2013-cü il, Bakı,Azərbaycan. s.187-188.

27. NATO-nun 2010-cu il Strateji Konsepsiyası. / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları. I Hissə. Bakı-2013. s.502-505.

**Меликова Зумруд Эльдар кызы**

# ВОСТОЧНАЯ ЕВРОПА В СОВРЕМЕННОЙ СИСТЕМЕ ЕВРОПЕЙСКОЙ БЕЗОПАСНОСТИ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность исследуемой темы, определены цели и задачи исследования, объект и предмет исследования, проведен анализ степени научной разработки проблемы, показаны теоретическое и практическое значение работы.

В первой главе – «Завершение «холодной войны» и изменение существующих в Европе систем безопасности», указаны аспекты геополитической безопасности, повлиявшие краху социализма в Восточной Европе, исследованы изменения парадигм безопасности в Восточной Европе на фоне завершения «холодной войны» и причины возникновения новых угроз для общеевропейской безопасности, анализированы ее модели.

Во второй главе – «Восточная Европа и расширение НАТО на Восток», указаны геополитические интересы НАТО в Восточной Европе, интеграция Восточноевропейских стран в систему Североатлантической безопасности, структурные изменения в Восточной Европе и их последствия, в том числе отношение России к расширению НАТО в Восточном направлении, существующие противоречия.

В третьей главе – «Страны Восточной Европы и вопросы безопасности в рамках Европейского Союза», указаны факторы безопасности в интеграции Восточноевропейских стран в Европейский Союз, анализированы участие Восточноевропейских стран в формировании общей внешней политики и политики безопасности Европейского Союза, а также основы политики Европейского Союза по отношению безопасности Восточной Европы.

В Заключении подведены итоги исследования, проведены научно-аналитические обобщения, выдвинуты мнения и предложения теоретико-практического характера, связанные с решением проблемы. Автор приходит к выводу, что Западные страны сумевшие привлечь в зону своего влияния сначала в экономическом и политическом плане Восточно-Европейские страны, находящиеся под советским влиянием, ликвидировав разъединительную линию делившую Европу в годы холодной войны на две части добились привлечения этого региона в руководимую ими структуру безопасности.

**Zumrud Eldar kizi Melikova**

# EASTERN EUROPE IN THE CONTEMPORARY EUROPEAN SECURITY SYSTEM

## SUMMARY

In the theme Eastern Europe and the role of contemporary European security system have been investigated. The theme consists of Introduction, 3 Chapters the result and the list of the literature used.

In the introdustion the actuality of the subject of the study is justified, goals and objectives of the research, as well as theoretical and methodological basis of the research are defined, carried out a detailed analysis of the level of development of scientific problems, in scientific innovation, as well as theoretical and practical significance of the research work is shown.

The first chapter is called «The end of the Cold War and the change of security systems in Europe», the chapter is about of the collapse of socialism in Eastern Europe, the impact of geopolitical security aspects, against the backdrop of the end of the Cold War in Eastern Europe, the emergence of new threats to the security paradigms change and the reasons for the investigation of pan-European security.

The second chapter – «Eastern Europe and the eastward expansion of NATO strategy». In this chapter NATO's geopolitical interests in Eastern Europe , Eastern European states into the North Atlantic security system, the effects of structural changes in Eastern Europe, Russia 's attitude towards NATO expansion to the east, the main directions of the existing contradictions in the cooperation are studied.

The third chapter is «Security issues within the framework of the Eastern European countries and the European Union». In this part of the theme safety factors in the integration of Eastern European countries in the European Union, Eastern European countries in the formation of the European Union's common foreign policy and security policy , as well as the basic principles of the European Union's policy on the security of Eastern Europe have been analyzed. Also in this chapter EU security interests in the South Caucasus have been researched.

In the conclusion part of the dissertation research was summarised, the scientific-analytical conclusions, as well as the ideas for solutions of the problem, the theoretical and practical nature of the proposals are identified. The author came to the conclusion that the European countries have managed to draw in its area of influence the Eastern European countries which were under Soviet influence, first in economic and political terms, and then, after eliminating of disconnecting the line that divided Europe during the Cold War into two parts, achieved attraction of this region to the security structure led by them.

Format: 60x84 1/16. Tiraj 100. Sifariş № 55

DİA-nın mətbəəsi

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ**

**ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

***На правах рукописи***

**ЗУМРУД ЭЛЬДАР кызы МЕЛИКОВА**

# ВОСТОЧНАЯ ЕВРОПА В СОВРЕМЕННОЙ СИСТЕМЕ ЕВРОПЕЙСКОЙ БЕЗОПАСНОСТИ

**Специальность: 5901.01 – «Международные отношения»**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени**
**доктора философии по политическим наукам**

**Баку-2014**